# Azərbaycan Respublikasının Nazirlər Kabineti

# «I, II və III məsuliyyət səviyyəli bina və qurğuların təsnifatı»nın təsdiq edilməsi haqqında

# Qərar № 214

***Bakı şəhəri, 16 sentyabr 2008-ci il***

«Bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi qaydalarının təkmilləşdirilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 2 sentyabr tarixli, 782 nömrəli Fərmanına əlavələr və dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 13 noyabr tarixli, 650 nömrəli Fərmanının 2.5-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. «I, II və III məsuliyyət səviyyəli bina və qurğuların təsnifatı» təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi bu qərardan irəli gələn məsələləri həll etsinlər.

3. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının Baş naziri***

***A. RASİ-ZADƏ***

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (30 sentyabr 2008-ci il, № 9 (135), maddə 861) («VneshExpertService» LLC).***

---

*Azərbaycan Respublikası*
*Nazirlər Kabinetinin*
*2008-ci il 16 sentyabr tarixli,*
*214 nömrəli qərarı ilə*
***təsdiq edilmişdir***

# I, II və III məsuliyyət səviyyəli bina və qurğuların təsnifatı

# Bina və qurğuların məsuliyyət səviyyəsinin uçotu

1. İstismara yararsız olduğu halda, eləcə də dağılması zamanı müxtəlif miqyaslı iqtisadi, sosial və ekoloji nəticələrə səbəb olan bina və qurğuların məsuliyyət səviyyəsinin uçotu üçün üç səviyyə təyin olunur*:

- I yüksək məsuliyyət səviyyəli;
- II normal məsuliyyət səviyyəli;
- III aşağı məsuliyyət səviyyəli.

### *I yüksək məsuliyyət səviyyəli bina və qurğular*

| Sıra №-si | Bina və qurğuların adı |
|---|---|
| 1. | Tutumu 10000 kub metr və daha çox olan neft, neft və kimya məhsullarının saxlandığı çənlər |
| 2. | Su və istilik elektrik stansiyaları, həcmi 10 milyon kub metr və daha çox olan su anbarları |
| 3. | Neft, neft və kimya məhsulları, qaz, su, çirkab suları nəql edən magistral boru kəmərləri |
| 4. | Üstüörtülü tribunalı idman qurğuları, konsert sərgi salonları, kinoteatrlar, teatrlar, muzeylər, dövlət arxivləri |
| 5. | Metropoliten tunelləri və stansiyaları |
| 6. | Uzunluğu 50 metr və daha çox olan körpülər və yol ötürücüləri |
| 7. | Hündürlüyü 100 metr və daha çox olan rabitə qurğuları |
| 8. | Hündürlüyü 100 metr və daha çox olan tüstü boruları |
| 9. | 24 metr və daha çox aşırımı olan üstüörtülü sənaye və ictimai obyektlər |
| 10. | Nadir (unikal) bina və qurğular |

---

** Bu təsnifat məsuliyyət səviyyəsinin uçotu digər normativ sənədlərlə müəyyənləşdirilən bina və qurğulara şamil olunmur.*

---

### *II normal məsuliyyət səviyyəli bina və qurğular*

| Sıra №-si | Bina və qurğuların adı |
|---|---|
| 1. | I məsuliyyət səviyyəli bina və qurğular istisna olmaqla, digər bina və qurğular |
| 2. | Yaşayış evləri (12 metr hündürlüyədək* yaşayış evləri istisna olmaqla) |
| 3. | Təhsil və səhiyyə obyektləri |
| 4. | Mədəni-məişət, sosial və infrastruktur təyinatlı obyektlər |
| 5. | İstehsalat, kənd təsərrüfatı və iqtisadiyyatın digər sahələri üzrə binalar və qurğular |

### *III aşağı məsuliyyət səviyyəli bina və qurğular*

| Sıra №- | Bina və qurğuların adı |
|---|---|

| **si** | |
|---|---|
| 1. | 12 metr hündürlüyədək fərdi yaşayış evləri |
| 2. | Parniklər, istixanalar, yay pavilyonları, kiçik anbarlar və buna oxşar tikililər |

---

* *Binanın səkisinin ən aşağı və damının ən hündür nöqtələrinin səviyyələrinin fərqi.*